“Xudafərin harayından qalan mən!..”

# XUDAFƏRİN

Qəzet 1932-ci ildən çıxır № 13-14 (6879-6880) 28 dekabr 2023-cü il



# Yeni iliniz mübarək!

## 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür!



## Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri ”Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə “ağıllı şəhər”, “ağıllı kənd” kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2024-cü il “Yaşıl dünya naminə həmrəylik ili” elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə bağlı tədbirlər planına dair təklifləri bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri,*
*25 dekabr 2023-cü il*

### *“Heydər Əliyev-100”*

## Tədbir keçirilmişdir




“Heydər Əliyev İli” tədbirlər planı çərçivəsində Cəbrayıl rayonu 1 nömrəli tam orta məktəbdə il ərzində bir çox tədbirlər həyata keçirilmişdir: Məktəbdə Heydər Əliyevin anadan olmasının 100 illiyinin tamam olması münasibətilə tədbir keçirilmiş, Ulu öndərin məzari məktəbdə pedaqoji heyəti tərəfindən ziyarət edilib, önünə əklil qoyulmuş, şagirdlər Heydər Əliyev Mərkəzinə ekskursiyaya aparılmış, Heydər Əliyev dərsləri keçirilmiş, həyat və fəaliyyətini əks etdirən videoroliklər, sənədli filmlər izlədilmiş, müxtəlif sahələrdə, inşa yazı, məqalə, rəsm, əl işləri, şeir, idman yarışları, ən yaxşı divar qəzeti, şahmat turniri, ən yaxşı təqdimat və s. kimi müsabiqələr keçirilmiş, məktəbdə Heydər Əliyev guşəsi yaradılmış və plokat hazırlanmışdır.



Dövlət Himnimiz səsləndirildikdən sonra “Heydər Əliyev İli” çərçivəsində görülmüş işlərin yekunu olaraq keçirilən “Heydər Əliyev-100” adlı ədəbi-bədii tədbiri giriş sözü ilə məktəbin direktoru Şahnazxanım Şükürzadə açdı.

Azərbaycan Respublikasının Xalq Yazıçısı Elmira Axundovanın “Şəxsiyyət və Zaman” əsərinin birinci cildi “Hakimiyyətin yükü altında” monoqrafiyasının motivləri əsasında məktəbin şagirdləri “Zülmətdən boylanan işıq!” adlı ssenari səhnələşdirmişlər.

Sonra müdrik siyasətçinin həyat və fəaliyyətindən bəhs edən videorolik nümayiş olundu.

Məktəbin 10-cu sinif şagirdi Nəbiyeva Aysun Füzuli rayonu Aybasanlı kənd Uşaq Musiqi Məktəbinin qrupunun müşayiəti ilə “Qarabağ” və “Mehriban olaq” mahnılarını ifa etdi, 8-ci sinif şagirdləri Sənan və Faiq Zəlimxan Yaqubun “Böyük ömrün dastanı” əsərindən bir səhnəni canlandırdılar. Məktəbin birinci sinif şagirdləri “Heydər babanın nəvələriyik!” üçrəngli bayraqla rəqs təqdim etdilər. Pianinoda məktəbin 9-cu sinif şagirdi İsalı Məlahət ”Qarabağ” mahnısını ifa elədi.

Tədbirdə Cəbrayıl Rayon Təhsil Sektorunun müdiri Zamiq Qurbanov, Şərqi Zəngəzur Regional Təhsil İdarəsinin əməkdaşı Əli Əliyev, “Xudafərin” qəzetinin baş redaktoru Şakir Albalıyev, şair Fərzalı Abbasəlioğlu, yazar Samirə Əşrəfqızı, Qaradağ Rayon Polis İdarəsinin rəis müavini polis polkovniki Yaşar İsayev və başqaları çıxış edib tədbirlə bağlı xoş sözlər söylədilər, Ulu Öndər Heydər Əliyevin Azərbaycanımız üçün gördüyü nəhəng işlər haqqında dəyərli fikirlər səsləndirdilər.

**“Xudafərin”**

## Şəhid ailələri və qazilərlə görüş

Ənənəvi olaraq bu dəfə də “Xudafərin” şadlıq sarayının rəhbəri Səyavuş Yusif oğlu Əsgərovun maliyyə dəstəyi ilə, Cəbrayıl rayon İcra Hakimiyyətinin və rayon Ağsaqqallar Şurasının təşkilatçılığı ilə 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə rayonun şəhid ailələri və qaziləri ilə görüş keçirildi.



Dövlət Himnimiz səsləndirildi, şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət başçımızın Xankəndindəki tarixi çıxışı dinlənildi.

Tədbirin aparıcısı şair Fərzalı Abbasəlioğlu Yeni Azərbaycan Partiyası Cəbrayıl rayon Təşkilatının sədri Arif Fərzəliyevə söz verdi. Daha sonra Milli Məclisin deputatı Ceyhun Məmmədov, rayon Ağsaqqallar Şurasının sədri Vaqif Məhərrəmov, ”Xudafərin” şadlıq sarayının rəhbəri Səyavuş müəllim və başqaları çıxış etdilər.

*(Ardı səhifə 2-də)*



## Ümummilli lider Heydər Əliyevin anım günü qeyd olunub

**12 dekabr 2023-cü il tarixdə Cəbrayıl rayonunda Ümummilli lider Heydər Əliyevin anım günü qeyd olunub. Tədbirdə Cəbrayıl rayon İcra Hakimiyyətinin Başçısı Kamal Həsənov, aparatın məsul əməkdaşları, hüquq-mühafizə orqanlarının, idarə-müəssisələrin rəhbərləri, YAP fəalları, ziyalılar, ictimaiyyət nümayəndələri iştirak ediblər.**

Anım tədbirində Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkında Ümummilli liderin abidəsi ziyarət edilib, önünə gül-çiçək dəstələri düzülüb, xatirəsi dərin ehtiramla yad edilib.



## Şəhid ailələri və qazilərlə görüş

*(Əvvəli səhifə 1-də)*

Çıxış edənlər Şəhid ailələri və qazilərə 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə xoş sözlərini çatdırdılar.

Respublikamızın Əməkdar artisti Gülüstan Əliyeva, müğənnilərdən Vüsal Zamanov, Elman Məmmədov, Xankişi Səfquliyev, Humay xanım, Şəmistan Muradxanlı və başqaları vətənpərvərlik ruhlu rəngarəng musiqi nömrələri səsləndirdilər.

Şəhidlərin ailə üzvlərindən Məlahət Məhərrəmova, Səkinə İbrahimova, Aytən Fətullayeva, Pərvanə Kalbalıyeva, həmçinin qazilər çıxış edərək tədbiri təşkil edənlərə, “Xudafərin” şadlıq sarayının rəhbərinə onlara göstərilən bu cür qayğıkeşliyə görə minnətdarlıqlarını çatdırdılar.

**ƏLİFOĞLU ŞAKİR**

## *Şəhid Elxan Hüseynovun xatirəsi yad edilib*



13 dekabr 2023-cü il tarixdə 44 günlük Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş baş kəşfiyyatçı, 3-cü dərəcəli ”Rəşadət” ordenli Hüseynov Elxan Maarif oğlunun anım günü münasibəti ilə 3 saylı qəsəbədə yerləşən ”Şəhidlər məzarlığı”nda anım tədbiri keçirilib. Tədbirdə Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, aparatın məsul əməkdaşları, YAP fəalları, şəhid ailələri, şəhidin ailə üzvləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. İştirakçılar tərəfindən şəhidin məzarı ziyarət olunub, gül-çiçək dəstələri düzülərək ruhuna dualar oxunub, əziz xatirəsi ehtiramla yad edilib.

## Rayonun ümumtəhsil məktəblərində Ulu Öndər Heydər Əliyevin anım günü ilə bağlı tədbirlər keçirilib

12 dekabr 2023-cü il tarixdə Cəbrayıl rayonunun bütün ümumtəhsil məktəblərində Ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar tədbirlər keçirilib. Tədbirlər çərçivəsində Ulu Öndərin abidəsi ziyarət olunub, həyat və fəaliyyəti haqqında ətraflı məlumat verilib, ədəbi-bədii kompozisiyalar nümayiş etdirilib.





## *İcra başçısının səyyar qəbulları*

## Beyləqan rayonu, Günəş qəsəbəsində

**Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov 19 dekabr 2023-cü il tarixdə Beyləqan rayonu, Günəş qəsəbəsində məskunlaşmış rayon sakinləri ilə növbəti səyyar görüş-qəbul keçirib. Səyyar qəbulda rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, aparatın məsul əməkdaşları və rayon sakinləri iştirak ediblər.**



Görüşdə icra başçısı çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan uğurlu siyasət nəticəsində respublikamızın qazandığı uğurlardan, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Rayon rəhbəri işğaldan azad olunmuş ərazilərdə, o cümlədən Cəbrayıl rayonunda aparılan abadlıq, quruculuq işləri, həyata keçirilən infrastruktur layihələri, əhalinin sosial problemlərinin həlli istiqamətində görülən tədbirlər və bu sahədə qarşıda duran vəzifələrlə bağlı sakinlərə məlumat verib.

Səyyar qəbulda sakinlər Böyük Qayıdışla, həmçinin onları narahat edən digər məsələlərlə bağlı suallarını səsləndiriblər. Qaldırılan məsələlərin bir qismi yerindəcə həll olunub, icrası vaxt və araşdırma tələb edən məsələlərlə bağlı müvafiq tapşırıqlar verilib.

Rayon sakinləri işğaldan azad olunmuş ərazilərdə görülən işlərə, şəhid ailələrinə, qazilərə, vətəndaşlara göstərilən diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər.

## Kürdəmir şəhərində



**15 dekabr 2023-cü il tarixdə Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov növbəti səyyar qəbulu Kürdəmir şəhəri, 564 ailəlik yeni köçkün şəhərciyində keçirib. Səyyar qəbulda İcra Hakimiyyətinin başçısı, aparatın məsul əməkdaşları və Kürdəmirdə məskunlaşan Cəbrayıl rayon sakinləri iştirak ediblər.**

Görüşdə rayon rəhbəri əhalini narahat edən problemlərin həlli üçün ölkəmizdə həyata keçirilən tədbirlərdən, infrastrukturun yaxşılaşdırılması istiqamətində görülən işlərdən söhbət açıb. İcra başçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul edilən, əhalinin sosial müdafiəsinə və rifah halının yüksəldilməsinə yönəldilmiş qərarlardan danışaraq bütün bunların vətəndaşlara dövlət qayğısının göstəricisi olduğunu bildirib.

Qəbul zamanı vətəndaşların qaldırdıqları məsələlərin bir hissəsi yerində həll olunub, digər məsələlərin həlli üçün isə müəyyən tapşırıqlar verilərək rayon rəhbəri tərəfindən nəzarətə götürülüb.

Görüşün sonunda qəbulda iştirak edən rayon sakinləri göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildiriblər.

# YAP Cəbrayıl rayon təşkilatının yaradılmasının 30-cu ildönümü qeyd olunub



aia.az xəbər verir ki, 26 oktyabr 2023-cü ildə Yeni Azərbaycan partiyasının Cəbrayıl rayon təşkilatının yaradılmasının 30-





cu ildönümü münasibətilə "Zəfərlər ölkəsinin alternativi olmayan partiyası" adlı tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri qoyaraq dərin ehtiramlarını bildiriblər. Sonra 4 saylı qəsəbə ərazisində salınmış "Şəhidlər" Abidə KompleksindəAzərbaycanın ərazi



bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi yad olunub, abidələri önünə gül-çiçək dəstələri qoyulub.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra ulu öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev çıxış edərək bildirib ki, təşkilatımız ötən 30 il ərzində Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə zəngin və şərəfli inkişaf yolu keçib, çox mühüm, tarixi əhəmiyyətə malik olan nailiyyətlər qazanıb: "Ötən illərdə olduğu kimi, bu gün də öz proqramında müstəqil dövlətçilik, azərbaycançılıq, vətəndaş həmrəyliyi, sosial ədalət prinsiplərini rəhbər tutan Yeni Azərbaycan Partiyasının cəmiyyətdə rolu və nüfuzu durmadan artır".

YAP Veteranlar Şurasının üzvü Əli Həsənov çıxışında YAP-ın Cəbrayıl rayon təşkilatının 30 ildə gördüyü işlərdən və partiyamızın rəhbərinin uğurlu siyasətindən danışıb.

AMEA-nın müxbir üzvü Novruz Quliyev öz çıxışında Ulu Öndərin dahi siyasətindən və YAP-nın Azərbaycanın tarixindəki əhəmiyyətindən geniş danışdı.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin Baş Məsləhətçisi Elmar Məmmədov çıxışında 44 günlük Vətən müharibəsində və 24 saatlıq antiterror əməliyyatında xalqın birliyi və qazanılan Zəfərdən söhbət açıb və Təşkilatın sədri Arif Fərzəliyevə müasir texnologiya ilə tədbiri hazırladığı üçün təşəkkür etdi.

Milli Məclisin deputatı Ceyhun Məmmədov Yeni Azərbaycan Partiyasının ümummilli lider Heydər Əliyevin ideyalarına əsaslanaraq ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etdiyini, dövlətçiliyimizin möhkəmlənməsinə və Azərbaycanın dinamik inkişafına öz töhfəsini verdiyini söyləyib.

Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov çıxışında deyib ki, partiya daim təkmilləşməyə və yeniliklərə açıq bir siyasi təşkilatdır: "Vətən müharibəsində qazanılan qələbədə də partiyanın yürütdüyü ideologiyanın rolu danılmazdır".

Cəbrayıl rayon Ağsaqqallar şurasının sədri Vaqif Məhərrəmov YAP Cəbrayıl rayon təşkilatında ilk ərazi partiya təşkilatının yaranması ilə əlaqəli xatirələrindən danışdı və təbrik etdi.Tədbirdə Ulu Öndərlə Heydər Əliyevlə Naxçıvanda görüşən 2 Cəbrayıllı Musayev Məhəmməd Mürsəl oğlu və Seyidaliyev Vahid Mıqdat oğlu iştirak etmişdilər.Məhəmməd Musayev çıxış edərək Ulu Öndərlə görüşdükləri zamanki xatirələrindən danışdı.Qarabağ müharibəsi qazisi Sərvan Mahmudov Yeni Azərbaycan partiyasına olan sevgisindən danışdı və təbriklərə qoşuldu.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya fəalı fəxri diplom və fəxri fərmanla təltif edilmiş,

YAP sıralarına yeni qoşulmuş gənclərə isə üzvlük vəsiqələri təqdim olunmuşdur.

# QƏLƏBƏMİZİN 3-CÜ İLDÖNÜMÜ



Noyabrın 3-də Şüvəlan qəsəbəsindəki "Xəzri" şadlıq sarayında Vətən müharibəsindəki şanlı və parlaq Qələbəmizin 3-cü ildönümü şərəfinə ədəbi-bədii formatda bayram tədbiri keçirildi. Tədbirin təşkilatçısı Şüvəlandan olan milyonları olmayan xeyriyyəçi Hacı İntiqam Atayev idi. Tədbirdə söz-sənət adamları, şəhid ailələri, qazilər iştirak edirdilər. Şəhid anaları olan Qənirə xanımın, Məleykə xanımın vətənpərvərlik ruhlu çıxışları iştirakçıları heyrətə gətirdi və alqış sədaları ilə qarşılandı.

Bu səpkidə ənənəvi hala çevrilən və silsilə tədbirlər keçirən Hacı İntiqam Atayevin ünvanına təşəkkür dolu çıxışlar səsləndirildi. Ali Baş Komandanımızla xalqımızın və ordumuzun sarsılmaz birliyi sayəsində qazandığımız Qələbəmizin əhəmiyyətindən danışıldı.

**Şakir ƏLİFOĞLU**



# "Zəfər sənə yaraşır!"





04 noyabr 2023 cü ildə Cəbrayıl Rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə Sabunçu Gənclər Evində, şanlı qələbəmizin 3-cü ildönümü ilə əlaqədar "Zəfər sənə yaraşır!" adlı ədəbi-bədii tədbir keçirildi. Tədbirdə Milli Məclisin deputatı Ceyhun Məmmədov, köməkçisi Rəşad Quliyev, YAP Cəbrayıl Rayon Təşkilatının sədri Arif Fərzəliyev, Cəbrayıl Rayon Ağsaqqallar Şurasının sədri Vaqif Məhərrəmov, filologiya üzrə fəlsəfə doktoru Tariyel Abbaslı, AZQMƏVŞAİB sədri Səbuhi İbrahimoğlu, Cəbrayıl rayon İcra Hakimiyyətinin nümayəndəsi Əbil Vəliyev, Cəbrayıl Rayon İcra Hakimiyyətinin məsul əməkdaşı, 44 günlük Vətən Müharibəsinin iştirakçısı Abbas Abbaslı, Vaqif Rüstəmov, Cəbrayıl Qaziləri və Müharibə Veteranları Birliyinin sədri İxtiyar Hüseynov, Dəmir Yumruq Alfa A İctimai Birliyin rəhbəri Ülviyyə xanım, şəhid ailələri, müharibə iştirakçıları, məktəblilər, ictimaiyyət nümayəndələri iştirak etmişlər.

Sabunçu şəhidlər xiyabanında uyuyan şəhidlərimizin məzarı ziyarət olundu. Daha sonra Sabunçu Gənclər Evində ədəbi bədii hissə ilə tədbir davam etdirildi.

# "Yarımçıq qalmış tələbə ömrü"





Şərqi Zəngəzur Regional Mədəniyyət İdarəsinə tabeli Cəbrayıl rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə Azərbaycan İstiqlal Muzeyində, şanlı qələbəmizin şəhidi Mahmud Heydər oğlu Cavadovun xatirəsinə həsr olunan "Yarımçıq qalmış tələbə ömrü" adlı ədəbi-bədii tədbir keçirilib. Tədbirdə Cəbrayıl Rayon İcra Hakimiyyətinin baş məsləhətçisi Əbil Vəliyev "Xudafərin" qəzetinin baş redaktoru Şakir Albalıyev, filologiya elmləri üzrə fəlsəfə doktoru Tariyel Abbaslı, şəhidin ailə üzvləri, Cəbrayıl qaziləri və Müharibə veteranları birliyinin sədri İxtiyar Hüseynov və başqaları çıxış etmişlər. Məktəblilər şəhidlər və vətənpərvərlik mövzusunda şerlər söyləmişlər.







“Xudafərin harayından qalan mən!..”
XUDAFƏRİN

# "Mədəni irs" forumu



18-19 dekabr tarixlərində “Gülüstan sarayı”nda Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin dəstəyi ilə Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş ”Mədəni irs” Forumu keçirildi. Ayrı-ayrı panellərdə müxtəlif mövzularda milli mənəvi-tarixi irsimizin qorunması, bərpası və s. istiqamətində məruzələr, geniş müzakirələr, rəylər, fikir və təkliflər səsləndirildi.

Forumun 2-ci günündəki panellərdə mən də iştirak etdim. V paneldə “Post-konflikt dövründə Azərbaycanın tarixi-mədəni və təbii irsinin qorunması” mövzusunda məruzələr ətrafında da suallar verildi, çıxışlar edildi, təkliflər irəli sürüldü.

Mikrofona yaxınlaşıb mən də bir vətəndaş - yazar olaraq pilot layihə şəklində aşağıdakı məzmunda təkliflərimi verdim:

- Hörmətli Forum iştirakçıları! Muzeylər bizim tarixi-maddi-mənəvi irsimizin mühafizə olunduğu məkandır. Lakin muzeylər təkcə örtülü yerlərdə, qapalı məkanlarda olmur. Açıq səma altında da muzeylər fəaliyyət göstərir. Belə açıq muzeylərə vaxtaşırı olaraq ekspedisiyalar təşkil olunur, turistlər, ziyarətçilər tərif buyururlar. Ağdam, Şuşa, Cəbrayıl, Füzuli və s. iri yaşayış məskənlərimiz - şəhərlərimizin erməni vandalizminə məruz qalması nəticəsində qalmış xarabalıqları daim diqqət mərkəzində olur, yerli və əcnəbi insanlara vaxtaşırı nümayiş olunur. Əlbəttə, bizim xalqın qurduğu, yaratdığı şəhərlərin, yaşayış məskənlərinin erməni barbarlığının qurbanına çevrilməsi tarixdə ən ağır faciələrdəndir. Bu dağıntılar insanların həyatlarını alt-üst etmiş, yaratdığımız milli-mənəvi irsimizi məhv etmişdir.

Bu gün Böyük Qayıdış Proqramı əsasında ayrı-ayrı kəndlərin təmərküzləşməsi, yəni bir neçə kəndin birləşdirilməsi nəticəsində ağıllı kəndlər inşa edilir. Bu, məcburi köçkünlərin öz doğma el-obalarına geriyə dönüşünü - yurda qayıdışını tezləşdirmək istiqamətində ən optimal, səmərəli variantdır.



Ancaq bunun eyni zamanda mənəvi fəsadları da vardır. Belə ki, kəndlərin birləşdirilməsi nəticəsində kiçik yaşayış məntəqələri acı həqiqət olaraq tarixin arxivinə gömülür. Nəticədə yaxın gələcəkdə unudulmaq təhlükəsi yaranır. Sanki bununla erməni vəhşiliklərinin ayrı-ayrı detalları da unudulmağa məruz qalır. Axı hər bir kənddə - xırda və ya böyük yaşayış məntəqəsində bizim xalqımızın nümayəndələri yaşayıb-yaradıb və o kəndlərin bünövrəsini qoyublar. Axı hər oymaq, hər kənd tariximizin ayrılmaz parçasıdır. Buna görə də bu məsələdə həssas olmalıyıq. Bu nöqteyi-nəzərdən yanaşmaqla belə bir təklif irəli sürürəm: 3-5 evdən ibarət olan xırda dağ kəndlərindən tutmuş iri yaşayış məntəqələrinə kimi hamısının dağıdılmış xarabalıqlarından müəyyən bir guşəni bu günkü və gələcək nəsillərə göstərmək və tanıtdırmaq məqsədilə açıq muzey kimi qoruyub-saxlayaq. Axı bu kəndlər də bizim xalqımızın, soydaşlarımızın yaşayış məskəni olub və hər kənddə də, təbii ki, tarixi-mədəni abidələr mövcud olub.

Bundan başqa, bu təklifimlə bağlı ideyalar da irəli sürdüm. Konkret olaraq Cəbrayıl rayonunun timsalında digər rayonlarımızda da bu pilot layihənin həyata keçirilməsini bildirdim. Mədəniyyət Nazirliyinin və hər bir rayonun İcra Hakimiyyətinin birgə təşkilatçılıqları əsasında hər bir rayonun ziyalılarının, jurnalistlərinin bu işə səfərbər olunmasını təklif etdim. Cəbrayıl rayonunun 94 (əslində 97) kəndinin hər birinin yaşlı sakinlərinin də şahidlikləri nəzərə alınmaqla o kəndlərə səfərlər təşkil olunsun. ”Burda bir kənd var idi...”, yaxud ”Burda bir el var idi...” adı altında həm televiziya verilişləri çəkilsin, həm də dövri mətbuat səhifələrində tarixi-etnoqrafik yönümlü və o kəndin xarabalıqlarından görüntüləri əks etdirən şəkilli oçerklər özünə geniş yer alsın. Bu oçerklər şəkillərlə birlikdə sonda kitab şəklində çap olunsun və respublikanın (və xarici ölkələrin) kitabxanalarına çatdırılsın. Beləliklə, işğaldan azad olunmuş bütün rayonlarımızla yanaşı, bütün kəndlərimiz də fotoşəkillərlə tarixi-etnoqrafik oçerklərin yaddaşında və eləcə də sənədli filmlərin ekran yaddaşında əbədiləşib gələcək nəsillərə çatdırılsın.

Təklifimdə pilot layihə olaraq Cəbrayılın 97 kəndi ilə bağlı materialları hazırlamağın məsuliyyətini ”Xudafərin” qəzetinin baş redaktoru kimi öz üzərimə götürə biləcəyimi də qeyd etdim.

Mənim xarabalığa məruz qalmış hər bir yaşayış məntəqəmizin müəyyən bir guşəsinin qorunub saxlanılaraq açıq muzeyə çevrilməsini və bu açıq muzeyi videolentin və qəzetlərin, kitabların yaddaşına köçürülməsini təklif etməyim Forum iştirakçıları tərəfindən təqdirəlayiq hesab olundu.

**Şakir ALBALIYEV**



## Azərbaycan Respublikasının Əməkdar artisti Yaqut Abdullayeva təltif olunub

**Azərbaycan Respublikası Prezidentinin 13 dekabr 2023-cü il tarixli Sərəncamı ilə həmyerlimiz, muğam və Azərbaycan xalq mahnılarının ifaçısı, Respublikamızın əməkdar artisti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti Yaqut Babakişi qızı Abdullayeva Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illiyi münasibətilə təhsilin inkişafındakı xidmətlərinə görə 3-cü dərəcəli ”Əmək” Ordeni ilə təltif olunub.**

**Bu münasibətlə Yaqut xanımı təbrik edir və uğurlar arzulayırıq.**

# Narkotizmə qarşı mübarizə

Narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq müasir dünyanı ciddi narahat edən qlobal problemlərdən biridir. Əfsuslar olsun ki, narkomaniya bu gün dünyanın bir çox dövlətlərində dəhşətli bəlaya çevrilməkdədir. Bu bəla həm narkotik istifadəçisinin müxtəlif cinayətlər törətməsinə səbəb olur, həm də cəmiyyətin mənəvi və intellektual potensialının aşınmasına, genefondun tənəzzülünə və digər mənfi hallara gətirib çıxarır. Narkotiklərin qanunsuz dövriyyəsi cinayətkarlığın artmasına səbəb olmaqla yanaşı, həm də terrorizmin maliyyə mənbəyi kimi beynəlxalq təhlükəsizliyə əsas təhdidlərdən biri hesab edilir.

Hələ 1997-ci ildə Ümummilli lider Heydər Əliyev BMT-nin Yaxın və Orta Şərqdə Narkotiklərin Qanunsuz Dövriyyəsinə Nəzarət üzrə Yardımcı Komissiyasının 32-ci sessiyasında çıxış edərkən cəmiyyətimizin sağlam inkişafının vacibliyini vurğulayaraq Azərbaycan Respublikasının bu problemin həllində ardıcıl addımlar atacağını və dünya ictimaiyyəti ilə bu məsələdə bir yerdə olacağını bir daha bəyan etmişdir. 1998-ci ildə Azərbaycan Respublikası BMT-nin ”Narkotik vasitələr haqqında”, 1961-ci ildə ”Psixotrop maddələr haqqında” konvensiyalarına qoşulmuşdur. 1999-cu il iyun ayının 18-də ”Narkotik vasitələr, psixotrop maddələr və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Bu qanunun başlıca əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycanda narkotik tərkibli bitkilərin kultivasiyası, narkotik vasitələrin və psixotrop maddələrin istehsalı qanunla qadağan edilmişdir.

Azərbaycanda sosial-iqtisadi sabitliyin təmin edilməsi, insanların sağlamlığının, rifahının və mənəvi-əxlaqi dəyərlərinin qorunması məqsədilə narkomanlığa, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə ümumdövlət vəzifəsi kimi müəyyən edilmişdir. Bu sahədə həyata keçirilən Dövlət proqramları çərçivəsində zəruri qanunvericilik bazası yaradılmış, institusional islahatlar həyata keçirilmiş, Azərbaycan müvafiq beynəlxalq sənədlərə və təşəbbüslərə qoşulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin narkomanlığa və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə dövlət və hüquq-mühafizə orqanlarından konkret nəticələr tələb etməsi bu qlobal problemin ölkəmizdə yayılması təhlükəsinə qarşı Azərbaycanın qətiyyətli mövqeyini əks etdirir.

Belə ki, hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş ”Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı” uğurla icra olunmaqdadır.

“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nın məqsədi respublikada narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğatı, ictimai maarifləndirmə işinin əhatəsinin genişləndirilməsi, müasir informasiya texnologiyalarının imkanlarından istifadə olunmaqla narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması, narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir texnologiyaların, yeni üsulların tətbiqi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq təcrübədən istifadə etməklə ixtisaslaşmış seminarların keçirilməsi və digər genişmiqyaslı məsələlərdən ibarətdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu ilin 15-17 aprel tarixlərində Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılmış və konfrans ən yüksək səviyyədə təşkil edilmişdir.

Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının və Amerika Birləşmiş Ştatlarının Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının birgə təşkilatçılığı ilə Bakıda keçirilən Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransda dünyanın 115 ölkəsindən 432 nümayəndə iştirak etmişdir.

Konfransın məqsədi narkotiklərin qanunsuz dövriyyəsi və çirkli pulların yuyulması ilə mübarizədə beynəlxalq təcrübənin öyrənilməsi, müvafiq sahədə əməkdaşlığın daha da gücləndirməsi olmuşdur. Bu konfrans, həmçinin digər dövlətlərlə səmərəli təcrübə mübadiləsinə imkan yaratmışdır.

Beynəlxalq konfrans çərçivəsində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı mövcud olan müasir mübarizə üsullarından mütəxəssislərin bəhrələnməsinə şərait yaradılmış, eyni zamanda, konfrans işini regional işçi qrupların müzakirəsi və seminar sessiyaları ilə davam etdirmişdir.

Dünyada getdikcə daha da intensivləşən iqtisadi inteqrasiya, ticarət və geniş həcmli yükdaşımaların təşkili üçün ölkələr arasında nəqliyyat əlaqələrinin genişlənməsi dünyanın bəzi regionlarında istehsal edilən narkotik vasitələrin digər ölkələrə yayılması ilə müşayiət olunur.

Azərbaycan müasir nəqliyyat infrastrukturuna malik olmaqla beynəlxalq yük daşımalarda Avropa ilə Asiya arasında mühüm tranzit ölkədir. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı əsas problem də xaricdən ölkə ərazisinə qaçaqmalçılıq yolu ilə gətirilən narkotiklərlə bağlıdır. Bəlli olduğu kimi bu, ilk növbədə Şərqdən Qərbə tranzit baxımından respublikanın əlverişli coğrafi mövqedə yerləşməsi ilə şərtlənir.

Bununla bağlı hüquq-mühafizə orqanları müasir telekommunikasiya və informasiya vasitələrinin imkanlarından istifadə etməklə, qanunsuz idxal-ixrac və tranzit daşıma marşurutlarını birlikdə təhlil etmiş və həmsərhəd dövlətlərdəki narkoşəraitin ölkədaxili vəziyyətə təsirini nəzərə alaraq, adekvat tədbirlər görmüş, həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların preksursorlarının ölkə ərazisinə qaçaqmalçılıq yolu ilə gətirilməsinin qarşısının alınması üçün bir sıra qabaqlayıcı profilaktik və əməliyyat-axtarış tədbirləri həyata keçirmişlər.

Belə ki, 2023-cü ilin yanvar-iyul ayları ərzində hüquq mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi üzrə 6696 cinayət faktı aşkar edilmiş, qanunsuz dövriyyədən 5 ton 141 kiloqramdan artıq müxtəlif növ narkotik vasitə və psixotrop maddə çıxarılmışdır. Buda 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə cinayətlərin sayı 145 fakt vəmüsadirə edilən narkotiklərin və psxiotrop maddələrin çəkisi isə 1 ton 237 kq artmışdır.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar başlanmış cinayət işlərinin istintaqı nəticəsində 4995 nəfər cinayət məsuliyyətinə cəlb edilmişdir.

Qanunsuz dövriyyədən götürülmüş 5 ton 141 kq 918,699 qr narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə qara bazar dəyəri 225 milyon 099 min 481 AZN kimi qiymətləndirilir.

Cari ilin yanvar-iyul ayları ərzində müsadirə edilmiş narkotik vasitələrin və psixotrop maddələrin 2 ton 186 kiloqramı ölkəmizə qaçaqmalçılıq yolu ilə gətirilmiş və cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 53 nəfəri xarici ölkə vətəndaşı olmuşdur.

Yalnız Biləsuvar rayon ərazisində Cəbrayıl rayonundan olan məcburi kğçkünlərin məskunlaşması üçün inşa edilmiş qəsabələrin və Cəbrayıl rayon ərazisindən 2023-cü ilin yanvar-nayobr ayları ərzində hüquq mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi üzrə 20 cinayət faktı aşkar edilmiş, qanunsuz dövriyyədən 16kq 312 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə çıxarılmışdır.

Həmçinin narkotik vasitələrin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının qarşısını almaqda aidiyyəti nazirlik, komitə və təşkilatlarla, ayrı-ayrı vətəndaşlarla operativ qaydada əlaqələndirilməni təmin etmək üçün Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının 802 - “Qaynar xətt” - rabitə əlaqəsi fəaliyyət göstərməkdədir.

Beləliklə, narkomaniya ilə mübarizənin məhz dövlət və ümummilli siyasət səviyyəsinəqaldırılması, ölkəmizdə narkomaniyanın profilaktikasına və qarşısının alınmasına son dərəcə ciddi əhəmiyyət verilməsi, ölkə Prezidenti cənab İlham Əliyevin narkotizmin hər cür təzahürünə qarşı prinsipial mövqeyi, bu sahədə dövlət və hüquq mühafizə orqanlarından konkret nəticələrin tələb edilməsi, gənc nəslin sağlam və yüksək ideyaları ruhunda tərbiyəsi, genefondumuzun qorunması istiqamətində bundan sonrada məqsədyönlü tədbirlər görüləcəkdir.

**Ramiz ƏLİYEV,**
*Cəbrayıl rayon prokuroru, ədliyyə müşaviri*

# ÖLÜMSÜZLÜK İKSİRİ - SEVGİ ŞEİRLƏRİ




**Həsən Qaramanlının (Çələbi) "Bir ömürdə iki dünya yaşadım" (Sumqayıt, "Dərələyəz-M", 2011) adlı şeirlər kitabını gözdən keçirirəm. Xatirimə gəlir ki, onun şeirlərini hələ orta məktəbdə oxuyarkən şair Mirzə Mirimli mənə göndərmişdi, mən də "Xudafərin" qəzetində çap etmişdim. İndi isə onun xeyli əvvəllər işıq üzü görən kitabçasını oxuyuram. Diqqətimi maraqlı nümunələr özünə çəkir. Əvvəlcə onun şəxsi kimliyi haqda yığcam məlumat verim ki, Həsən Tağı oğlu Zamanlı (Qaramanlı) 1990-cı ildə Cəbrayılın Hovuslu kəndində anadan olub. 1998-ci ildə Beyləqan rayonunun Günəşli qəsəbəsindəki Zahid Əhmədov adına orta məktəbin 1-ci sinfinə gedib 2009-cu ildə Biləsuvardakı 1 saylı Cəbrayıl qəsəbəsində Cəbrayıl şəhər 8 saylı orta məktəbi bitirib. BDU-nun şərqşünaslıq fakültəsini bitirib.**

Hər bir yazarda olduğu kimi, Həsən Qaramanlının da şeirlərində sevgi, məhəbbət motivlərinə genbol rast gəlirik. Hətta kitabdakı şeirlərin ilk bölümünə belə bir ad qoyub: "Həsəni şair edən sevgilər".

**Təranəm susubdur, kəsilib səsi,**
**İlhamım onunla alır həvəsi,**
**Tanrımın cəzası, ya hədiyyəsi?**
**Həsəni şair edən sevgilər.**

Bu misralarda şairlik təbinin sevgidən qaynaqlandığını söyləməklə həm də soruşur ki, məni şair edən sevgilər bilmirəm ki, Tanrının cəzasıdır, yoxsa hədiyyəsi! Çünki bir yandan sevgi müəllifə ruh verib, ona şeir yazdırır, başqa sözlə, onu şairlik ilhamıyla şərəfləndirir - bu, ilahinin ona verdiyi şairlik təltifi - hədiyyəsidir. Amma bir yandan da sevgi özü də bir cəzadır, ona görə ki, sevənin nəsibi çox vaxt günü ah-vayla keçməkdə olur, hicran ağrısı çəkməklə keçir, bu mənada sanki ilahi sevgi adlı odu-alovu ilə qəlbimi yandırıb-yaxır. Bu məntiqdən də ikiqütblü sual qoyur ortaya ki, məni - Həsəni şair edən sevgilər bilmirəm ki, Tanrının lütfüdür, yoxsa ağır çəkilməz cəzasıdır?

Şeirin həm də ölməzlik iksiri kimi sevgi(li)sinə əbədiyaşarlıq bəxş etdiyini də iddia edən Həsən Zamanlı yazır:

**Sənə həyat verdim şeirlərimdə,**
**Alovlu misra tək qəlbimə doldun.**
**Ömrümdən gedişin qəfil olsa da,**
**Şeirimdə bütləşib əbədi oldun.**

"Ölümsüzlük" adı ilə yazdığı bu nümunədə gözəli, M.Füzulinin "Heyrət, ey büt" deyə mədh etdiyi kimi, bütləşdirib, ona əbədiyaşarlıq heykəli qoyduğunu deyir.

**Şeirimdə ölməzlik qazanmısan sən,**
**Adi insanlar tək yaşayan gözəl.**
**Müstəsna haqqınla öyünməlisən,**
**Əbədiyyət rütbəsi daşıyan gözəl.**

Bu bənddə isə birbaşa göstərir ki, adi insanlardan biri olsan da, səni tərifləyib, adını-sanını, gözəlliyini öyüb göylərə qaldırmışam və bununla da şeirimin misralarına düşüb dildə-ağız gəzib-dolaşmaqla ölməzlik qazanmısan. Sənə verdiyim bu "əbədiyyət rütbəsi" ilə - "müstəsna haqqınla" iftixar hissi keçir, öyün-sevin ki, digərlərindən səni seçib-fərqləndirmişəm.

Digər bir nümunədə isə ümidsiz bir sevginin ətəyindən tutub dənizə doğru yön almasını şairanə duyğularla belə təsvirə gətirir:

**Sahilə enirik yarı fikirli,**
**Qanunsuz sevgidə hansımız oğru?**
**Ürəkdə nisgillə qan ağlasaq da,**
**Yalandan gülürük dənizə doğru.**

Dənizkənarı bulvarda, sahildə əl-ələ tutub gəzişən "iki sevgilinin" halını-əhvalını pərişanlığı ilə, könlü dağınıqlığı ilə təsvirə gətirən şair bu acılığı çox sərrast və bədii-poetik bir dillə verməyə nail olur:

**Sənin ürəyində yeni bir ümid,**
**Mənim gözlərimsə fikirli, durğun.**
**Dərsini bilməyən uşaq kimiyik -**
**Utanıb susuruq dənizə doğru!**

**Dəniz çirkabları götürən deyil,**
**Atacaq sahilə, ötürən deyil.**
**Bu sahil məhəbbət bitirən deyil,**
**Səpsək də tumların dənizə doğru!**

**Əlindən əlimə küləklər əsir,**
**Ürəklər donubsa, neyləsin fəsil?**
**Sahildə arzumuz olmadı hasil,**
**Çəkək avarları dənizə doğru!**

Son bəndlərini verdiyim bu şeir həm də məhəbbət aləminin sakinlərini düşünməyə vadar edir: "Sənin ürəyində yeni bir ümid" dedikdə ona ümid bəsləyən bir gözəlin məsum qəlbində xəyallara bələnmiş bir ümid gəzdirdiyi ifadə olunub. "Bu sahil məhəbbət bitirən deyil" misrasının real açımı isə "məhəbbət tumlarını dənizə doğru səpməklə cücərdə bilmərik" deyilməklə izahını tapır. Yəni burdan o həqiqət doğur ki, dənizkənarı bulvarda - sahildə qolboyun gəzməklə yox, məhəbbət tumlarını - sevgi dolu sözlərimizi semiçka kimi bir-birimizə sarı çırtlatmaqla yox, o sevgi tumunu qəlbimizə əkməklə cücərdə bilərik. Bəli, belə bir məntiqin boy göstərdiyi həmin bəndin davamı və elə həm də 9 bəndlik "Dənizə doğru" şeirinin yekun bəndi isə bu tapmacanın - sevgi oyununun nikbin finalla bitməməsinin səbəbini açıb ortaya qoyur: "Əlimdən əlinə küləklər əsir" - yəni yaz fəsli olsa da, bir-birimizə doğru soyuq küləklər əsir. Niyə? Çünki "ürəklər donub": ürəklər donubsa, onu yaz fəsli yox, heç qızmar yay fəsli də qızdıra bilməz. Başqa sözlə, şair demək istəyir ki, iki sevən qəlbi ancaq ürəkdə bir-birlərinə qarşı bəslənən sonsuz atəşin məhəbbət duyğusu, sədaqət hissləri bağlaya bilər; aradakı soyuqluq fəsillərin soyuqluğu ilə yox, ürəklərin qeyri-səmimiyyətindən doğan soyuqluqla bağlıdır.

Həsən Zamanlının (Qaramanlı) sevgi-məhəbbət nəğmələrində vurğulanan fikirlər sanki bir şeirindən digərinə keçdikcə çözülməyə başlayır, bir nümunədəki fikirlər digərinin davamı kimi təsir bağışlayır. Elə bil ki, sevgi aləmində oxucuya, ya aşiqə verdiyi tövsiyələr yerinə yetirilməyəndə, bu sözeşitməzliyin fəsadının necə olacağı növbəti şeirdə öz əks-sədasını verir:

**Payız buludu tək dolsan da gülüm,**
**Ömrünün yazında solsan da gülüm,**
**Qəlbimin sakini olsan da gülüm,**
**Evimin sakini ola bilmədin.**

Burda sosial faciə təsvir olunub: Ömrün yazında solmaq insanın gənclik arzularının çiliklənməsi, təlesizliyə uğraması - bəxtdən - taledən yarımaması deməkdir. Vay ondan ki, qəlbin sakini olub, sonda evin sakini ola bilməyəsən. Bu, artıq eşq-məhəbbət dünyasında bəşəri əhəmiyyətə malik olan milli düşüncə sistemimizdə çox böyük fəlakət (faciə) sayılır. Bir mahnıda musiqinin müşayiətilə deyildiyi kimi: "Sevəsən almayasan, bax bu, yaman dərd olar". Doğrudan da, sevib-sevilmək və sonda sevgidən yarımaq çox böyük ilahi xoşbəxtlikdir. Həsən Qaramanlının sevgi dolu misralarından şair kimi də, Qaraman övladı Çələbi kimi də oxucularına tövsiyəsi də budur ki, səmimiyyətlə sevin, sevgidə sədaqətli olun, eşqdən-məhəbbətdən doyunca yarıyın, qəlbin sakini olan eşqiniz yolunuzu sevdiyinizin - sevgilinizin mənzilinə aparıb çıxarsın, sevgidə uğurla mənzil başına yetişin. Ürəkləriniz bir olduğu kimi, yaşadığınız evinizin də ünvanı bir olsun - xoşbəxt bir ailə kimi sevib-sevilərək yaşayın.

**Şakir ALBALIYEV**




# Qəhrəmanlıq dərsindən səhifələr

**Dəyərli publisistimiz Bəhram Sarıcallı (Zeynalov) doğma kəndinə və onun vətən uğrunda həyatlarını qurban vermiş qəhrəman övladlarına böyük ehtiram və yazar borcu olaraq "Sarıcallı şəhidləri" ("Elm və təhsil", 2022) kitabını oxucuların ixtiyarına verib. Yüksək və nəfis tərtibatla işıq üzü görən kitaba Sarıcallının doğma və vətənpərvər övladı Afər Rza oğlu Hacıyev sponsorluq etmişdir. Ön sözdə müəllif qeyd edir ki, Sarıcallı kəndindən 5 şəhid, 2 girov düşən var.**

Əslində, müharibənin amansız qanunları var ki, onlardan biri də itkinlikdir. Ona görə də xalqımız əbəs yerə ölüm-itim ifadəsini birgə işlətməyib. Yəni itkinlik (girovluq) də şəhidlikdir. Onda qala erməni-haylar kimi vəhşi, qaniçici bir düşmənin əlinə girov düşəsən, ordan sağ çıxma ehtimalı azdır. Üstəgəl də ki, bu 30 ildə öldü-qaldıları bilinmədi ifadəsini işlədiriksə, çox şübhəsiz ki, artıq cismən həyatda yoxdurlar. Kitabı oxuyub gözdən keçirdikcə, gördüm ki, Bəhram müəllim həmin 2 nəfər girovun da haqqında məlumat verib və doğru olaraq onların - 1937-ci il təvəllüdlü Əliyev Piri Dilavər oğlu və 1962-ci il təvəllüdlü Hacıyev Ramiz Əyyub oğlunun da şəhidlərlə bağlı kitabda getməsi də prinsipcə onların şəhid olduqlarını göstərir. Başqa sözlə, bu prinsipdən yanaşdıqda, Sarıcallı kəndinin 7 şəhid övladı var və bunlar "Sarıcallı şəhidləri" kitabında öz əksini tapıb

Bəhram Zeynalov kitabda 1-ci Qarabağ müharibəsi şəhidləri olan Əliyev Vüqar Zülfüqar oğlu (26.09.1969 - may 1992), Qasımov İlham Qasım oğlu (1967 - 28.06.1992), Hüseynov İsmət Məhəmməd oğlu (1975 - 1993. itkin), Fətullayev Nurəddin Məhəmmədəli oğlu (30.06.1973 - 15.08.1993) haqqında və 2016-cı ilin Aprel şəhidi olan İbrahimov Mahmud Azər oğlu (3.09.1997 - 2.04.2016) haqqında kifayət qədər dolğun məlumatlar vermişdir.

Qeyd edim ki, Bəhram müəllim kitabda hər bir şəhidin yığcam tərcümeyi-halını təqdim etdikdən sonra həmin şəhidlərin doğmaları ilə görüşüb söhbətləşməklə xatirələrini də qələmə almışdır, bu da haqqında bəhs açılan vətən övladlarının ailədəki və cəmiyyətdəki hörməti, nüfuzu və xarakterik cizgiləri ilə bağlı da oxucularda yetərli dolğun təsəvvür formalaşdırır. Şəhidlərimizin yığcam və şərəfli həyat yolu bu günkü və gələcək nəsillərə nümunəvi qəhrəmanlıq dərsidir. "Sarıcallı şəhidləri"nin səhifələrində bu qəhrəmanlıq dərsindən bəhs olunur.

**Şakir ALBALIYEV**

# Şanlı tariximiz

27 sentyabr 2020-ci il. Müstəqil Azərbaycanımızın tarixinə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsi... Bu tarix qələbəmizin, xalqımızın mənfur düşməni diz çökdürdüyü savaşın başlanğıc tarixidir. Məhz bu tarixdə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun əks-hücum əməliyyatı nəticəsində "Dəmir yumruq" əməliyyatı adı ilə Vətən müharibəsi başlamışdır. Azərbaycan Ordusunun 44 günlük uğurlu əks-hücum əməliyyatı ilə 5 şəhər, 4 qəsəbə, 286 kənd, bir sıra mühüm strateji yüksəkliklər işğaldan azad edilmişdir. Nəticədə isə 30 illik həsrət bitmiş, işğal altında olan torpaqlarımız düşmən tapdağından azad edilmişdir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazılmışdır. Müharibə itkisiz olmur. Qısa müddətdə qazanılan bu Zəfər xalqımızın minlərlə qəhrəman övladının canı və qanı bahasına başa gəlmişdir. Vətən müharibəsi zamanı Silahlı qüvvələrimizin 2783 nəfəri şəhid olmuşdur. Vətən müharibəsində şəhidlərimiz, qazilərimiz canları, qanları bahasına vuruşaraq bizim illərdir həsrətində olduğumuz Qarabağ torpağını azad etdilər. Respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək düşmənə sarsıdıcı zərbələr endirdi. Bu mübarizədə ordumuzun göstərdiyi igidlik tarix durduqca bizim qürur mənbəyimiz olacaq.

44 günlük Vətən müharibəsi xalqımızın haqq, ədalət və şərəf mübarizəsinin şanlı salnaməsi kimi tarixə yazıldı. Biz artıq Vətənik, biz torpağıq və biz həm də yarayıq. Torpaqlarımızın azadlığı uğrunda canlarından, qanlarından keçmiş bütün şəhidlərimizə Allah rəhmət eləsin.



**Dürdanə QARAŞOVA**



# Yusif nər biləkli, şir ürəkli idi

Sofulu və Qarağac kəndlərinin başı üzərindəki dağ silsiləsini aşıb üzü o tərəfə güllü-çiçəkli, meşəli bir sahəyə doğru gedəndə, 5-6 evdən ibarət olan dağ kəndi Söyüdlü kəndi ilə, Xanağabulaq kəndi ilə qarşılaşardıq. Füsunkar təbiət qoynunda qərar tutmuş bu kəndin, elin-obanın insanları da təmiz dağ havası kimi saf idilər. Təbiətin özü ilə nəfəs-nəfəsə verib sakit, şad-xürrəm bir həyat yaşayırdılar. Mən bu kəndlər barəsində nağıllardakı kimi keçmiş zamanlarda danışıram. Ancaq bu kəndlər də, onun sakinləri də nağıl yox, nağıl kimi şirin bir dünyanın - bəlkə də, o vaxtlar fərqində olmadığımız bu dünyadakı cənnətin canlı təcəssümü idilər. Bəs cənnət necə olur ki?Suyu təmiz, havası saf, insanları namuslu, iffətli, mehriban, qayğıkeş olan bu yurd elə cənnətin özüdür. 1993-cü ilin 26 avqustuna kimi mənfur ermənilərin kəndi işğal edib, viranə qoymasına kimi bu cənnətməkan diyar öz varlığı ilə görənləri heyrətə gətirirdi.

1993-cü ilin 25 avqustundan işğala məruz qalan Cəbrayıl rayonunun Pirəsəd, Sofulu, Dağtumas, Çullu, Qazanzəmi kəndləri ilə yanaşı, Söyüdlü kəndi də bayquşşifətli düşmənlərimizin hücumu nəticəsində xarabalığa çevrildi. Zeynalabdin kişi ilə Fatma xala da dədə-baba ocaqları olan Söyüdlü kəndindən, doğma ev-eşiklərindən didərgin düşdülər. Həmin vaxt - 26 avqustda Zeynalabdin kişinin qardaşı Məhəmmədəli kişi də namərd düşmənin gülləsinə tuş gəldi. Onun nəşini gətirib Qubadlıda Yusifbəyli kəndində dəfn etdilər. Yurd itkisi bir yandan, qardaş itkisi də bir yandan Zeynalabdin kişiyə, onun ailəsinə çox böyük dərd, faciə oldu. Heç demə, hələ bu itki ilə qurtarmayacaqmış Zeynalabdin kişinin dərdi. Məcburi köçkünlükdən sonra qardaşı Həsən kişi də metroda törədilən qanlı terrorun qurbanı olacaqdı, oğlu Yusif də könüllü olaraq döyüşlərə yollanacaq, Tərtər rayonunun Qaraqoyunlu kəndində şəhid olacaqdı... Həyat yoldaşı Fatma xala da övlad itkisindən için-için incəlib-qincəlib, 2004-cü ildə haqqın dərgahına köçəcəkdi... Çəkiləsi mümkün olmayan ağır dərdlər idi.

Zeynalabdin kişi ilə Fatma xala Söyüdlü kəndində şən-bəxtəvər ömür sürmüşdülər. Bu evlilikdən onların 8 övladları dünyaya gəlmişdi. Ömər, Sevgülü, Yusif, Bayram, Çiçək, Kəmalə, Məleykə və Xalidə. 3 oğul, 5 qız ata-anası kimi özlərini dünyanın ən bəxtəvər ailəsi sayırdılar. Oğlanları Bayram isə polis nəfəri kimi könüllü olaraq vətənin müdafiəsində iştirak edirdi. Yəni 3 oğlundan birini vətənin keşiyini çəkməyə - dədə-baba yurdunu qorumağa göndərmişdi Abdin kişi (Zeynalabdin kişini kənddə-kəsəkdəsadəcə Abdin adıyla tanıyıb çağırırdılar). Axı bu cənnətmisal vətənimizin cənnət guşəsini kənardan kimsə gəlib qorumayacaqdı ki. Elə Abdin kişinin timsalında halal, zəhmətkeş ailələrin qeyrətli oğulları qoruyurdu vətəni.

Doğma kəndinin, Cəbrayılın, Qarabağımızın düşmən tapdağında olmasını özünə sığışdırmayan Abdin kişinin Sumqayıtda yaşayan və işləyən oğlu Yusif 1994-cü ildə könüllü olaraq ordu sıralarına yollanır. Anası Fatma xala nə qədər üz vurursa ki, bəs qardaşın Bayram da polis kimi cəbhə bölgəsində yağı düşmənlə üz-üzə dayanıb vuruşur, gəl sən getmə. İki oğlumun birdənbirə düşmən qabağında olması bir ana kimi mənə çox ağır olar. Yusif heç nəyə məhəl qoymadan öz yolundan dönmür. Füzuli bölgəsində döyüşlərə başlayır. Daha sonra xəbər gəlir ki, ermənilər Tərtər istiqamətindən hücuma keçiblər. Gəncəni götürmək üçün planlar qurublar. Bu vaxt Yusif qrantomyotla, pulemyotla Tərtər bölgəsinə gedir. Bir erməni tankını qrantomyotla vurub sıradan çıxarır. Mayor rütbəsində olan bir zabitimiz döyüşlərdə ağır yaralanır, onu döyüş zonasından çıxararkən namərd düşmən Yusifi hədəfə alır. Onu gətirib Sumqayıtdakı Şəhidlər Xiyabanında dəfn edirlər.

Yusif Zeynalabin oğlu Allahverdiyev 6 avqust 1968-ci ildə Cəbrayıl rayonunun Söyüdlü kəndində anadan olmuşdu. 1-ci sinfə kəndlərindəki ibtidai məktəbə gedib. 3-cü sinfi bitirdikdən sonra qonşuluqdakı Qazanzəmi kənd 8 illik məktəbin 4-cü sinfinə gedir. 9-10-cu sinifləri isə Cəbrayıl şəhərindəki internat tipli orta məktəbdə oxuyur. 1986-1988-ci illərdə Ukraynada aviasiya batalyonunda sovet ordusunda hərbi xidmətdə olur.

Yusifin qardaşı polis baş serjantı Bayramla söhbət zamanı deyir ki, hələ sovet ordusunda qulluq edərkən ondan evimizə komandirindən çoxlu təşəkkür məktubları gələrdi. Yusif bədəncə çox güclü-qüvvətli oğul idi, hər kəs onun qolunu qatlaya bilməzdi. Olduqca vətənpərvər idi. İdmanla məşğul olmağı çox sevərdi. Qolunda Allah-təaladan güc var idi. Elə bilki, elə döyüş üçün, ordu üçün doğulmuşdu. 1988-ci ildə sovet ordusundan tərxis olunub kəndə gəldi. Bir müddət sonra Sumqayıta gedib orada Azərenerjidə sürücü işləməyə başladı. Onu da deyim ki, Yusif əsgərlikdən qabaq hərbi komissarlığın xətti ilə Füzulidə sürücülük kursunda oxumuşdu. O vaxtlar bizimlə ailəvi dost olmuş Cocuq Mərcanlıdan Avçı kişigilə gedər, orda qonaq qalardı. Elə oldu ki, tale-qismət gətirdi, Avçı kişinin qızı Arifəni sevdi və 1991-ci ildə böyük şadlıq-şadyanalıqla onların toylarını elədik. Gəlin maşınları bəzədildi və toy karvanı düzüldü, Cocuq Mərcanlıdan Söyüdlüyə böyük dəm-dəstgahla, zurna-balabanla Arifəni gəlin gətirdik. Necə deyərlər, dünyanın düz vaxtlarıydı, cənnət torpaqlarımızda, qapımızda toy mağarı quruldu, həmin gün ailəmizin həyatında ən xoşbəxt, bəxtəvər günlərdən birini yaşadıq. 1994-cü ilin aprelində onların bir oğul övladları dünyaya gəldi. Amma özü döyüşlərdə olduğundan eşidib-bilsə də, oğlunun üzünü görmədi. 1994-cü ilin 12 mayında qardaşım Tərtərin Qaraqoyunlu kəndində qəhrəmancasına şəhid oldu.

Şəhidin qardaşı onu da bildirdi ki, Yusifin oğlu Elvin Zeynalabdinli BDU-nu bitirib, hazırda metroda işləyir. Subaydır.

Bu məqamda Yusifin oğlu Elvinin tezliklə subaylığın daşını atmasını arzuladım: Övladları dünyaya gələ və birinə də atasının adını qoya.

Bayram axırda bir ibrətamiz misal da çəkdi ki, adi bir quşun yuvasını dağıdırsan, o quş yuvasından ötrü gedib-gəlir, uçulmuş yuvasının həsrətini-nisgilini çəkir. Biz də bu 30 ildə viran qalmış yurdumuzu yağılardan azad eləmək yolunda çoxlu qanlar tökdük. Şükür ki, doğma torpaqlarımızı işğalçılardan təmizlədik. Şəhidlərimizin də, qardaşım Yusifin də ruhu şaddır...

Quşun yuvasını uçurub perik saldıqları kimi, bizim də evlərimizi tar-mar edib, xarabazarlığa çevirdilər düşmənlərimiz. İnşallah, tezliklə doğma dədə-baba yurdlarımıza qayıdıb, evlərimizi təzədən abad edəcəyik. Şəhid Yusif Allahverdiyevin oğlu Elvin də ata-baba yurdu Söyüdlüyə dönüb, orda təzədən yurd salacaq, şəhid atasının sönmüş çırağını yandırıb, ruhunu sevindirəcəkdir...

**Şakir ALBALIYEV**

# Qəhrəman ailənin qəhrəman şəhidi




**Cəbrayıl rayonunun Daşkəsən kəndində bir xoşbəxt ailə vardı: Famil Turabxan oğlu Əliyevlə Şükufə Səlim qızı Həsənovanın evlilik həyatlarından Ulu Tanrı ailəyə 7 oğul, 3 qız payı bəxş eləmişdi. Belə çoxuşaqlı analara sovet hökuməti Qəhrəman ana adı verirdi. Doğrudan da, Famil kişi də, Şükufə xala da bu böyük köçkülfəti halal ruzi ilə böyüdüb, ədəblə-ərkanla boya-başa çatdırırdılar. Əslində 10 uşağı layiqincə təndürüst böyüdüb araya-ərsəyə çatdırmaq ata üçün də, ana üçün də böyük qəhrəmanlıq idi. Muğan, Qara, Cəmil, Şamaxı, Atlaz, Natiq, Güloğlan, Babək, Baloğlan və Natiqə.**

Oğul-qız dost-düşmən toxmağıdır deyiblər. Famil dayı ilə Şükufə xala övladlarını qeyrətli, namuslu, elcanlı, ailəcanlı bir ruhda böyüdürdülər. Buna görə də vətənimizin başı üstünü qara buludlar almağa başlayanda, bədnam qonşularımız ölkəmizə qarşı haqsız ərazi iddiası ilə göz dikib, hücuma başlayanda, onda bu halal-hümmət ailənin övladları da vətənin müdafiəsi üçün hazır olduğunu bildirdilər. Muğan, Baloğlan, Güloğlan və Babək - dörd qardaş vətənin azadlığı uğrunda döyüşlərə qatıldı. Bir evdən, bir ailədən 4 nəfər düşmənin gözünə süngü-bıçaq kimi sancılmağa başladı. Qəhrəman ailənin qəhrəman oğulları kimi şücaət göstərməyə başladılar. Mən bu yazımda onlardan biri haqqında - ailənin 8-ci övladı olan Babək haqqında söz açmaq istəyirəm.

Əliyev Babək Famil oğlu 23 may 1971-ci ildə Daşkəsən kəndində anadan olmuşdu. 1978-1988-ci illərdə kəndlərindəki orta məktəbdə oxumuşdu. 1989-1991-ci illərdə sovet ordusunda - Sitalçayda hərbi xidmətdə olmuşdu. Çoxuşaqlı ailə olduqlarını nəzərə alıb, o vaxt onu elə Azərbaycan Respublikası ərazisində - Sitalçayda xidmət keçməyə göndərmişdilər. 1991-ci ildə əsgərliyi qurtarandan sonra bir müddət Bakı şəhərində fəhlə işləyir. Lakin doğma torpaqlarımızın doğulduğu yurdun düşmən hücumlarına məruz qaldığını görəndən sonra könüllü olaraq Cəbrayıla qayıdır. Doşulu, Quşçular kəndlərində postlarda dayanır. Düşmən hücumlarının qarşısının alınmasındakı döyüşlərdə fəallıq göstərir. O, həm də Xalq qəhrəmanı Babəkin adının daşıyıcısı idi axı. Adını daşıdığı qəhrəmanın ruhundan güc alırdı sanki.Hafiz Baxışın sözlərinə bəstələnmiş:

**Cavanşirəm Babəkəm,**
**Nəbiyəm, Koroğluyam -**
**Azərbaycan oğluyam**

musiqisinin sözlərini dodaqlatı zümzümə eləyər, əzmkar bir ruhla döyüşlərə yollanardı.

Ancaq neyləyəsən ki, arxalı köpək qurd basar. Arxalarını ruslara və xarici havadarlarına söykəyən yağı düşmən güclü çıxdı. 1993-cü ilin avqustunda doğma Cəbrayılımız da, Babəkin adısanı dillər əzbəri olan alimlər kəndi kimi tanınan Daşkəsən kəndi də yağı işğalına məruz qaldı. 1992-ci ildə dünyasını dəyişmiş atası Famil Turabxan oğlunun məzarı da yağı tapdağı altında qaldı. Lakin bu müsibətlə, qaçqın-köçkünlük bəlası ilə heç vəchlə barışa bilməyən Babək Əliyev yenə əlində silah düşmənə qarşı döyüşürdü. Füzuli rayonunun Horadiz qəsəbəsindəki döyüşlərdə iştirak etdi. Bundan başqa, Füzuli rayonunun işğala məruz qalmış bir neçə kəndinin azad olunması uğrunda fədakarlıqlar göstərdi. Lakin onun əsas niyyəti həm də atasının uyuduğu doğma Cəbrayıl torpağını, Daşkəsən kəndini də yağı tapdağından azad etmək idi. Bunun üçün də əsas strateji mövqelərdən biri olan Lələtəpə yüksəkliyini geri qaytarmaq uğrunda döyüşlərə atılmışdı. 1994-cü ilin 4 martında aparılan bu qanlı-qadalı döyüşlərdə Babək amansız düşmən gülləsinə tuş gəlib şəhidliyə qovuşdu. Babəki İmişli rayonunun Məzrə kəndində torpağa tapşırdılar. Burdan vətən deyib uğrunda vuruşduğu Cəbrayıl torpağına, Qarabağımıza gedən yol bir qədər yaxındır dedilər. 2023-cü ilin 3 noyabrında Babəkin anası Şükufə xala da 88 yaşında haqqın dərgahına qovuşdu. Onun da nəşini vəsiyyətinə əsasən aparıb oğlu Babəkin məzarı ilə yanaşı dəfn etdilər.

Cəmi 23 il cismani ömür yaşadı. Bəlkə də, fikrində-xəyalında bir el gözəlini də özü üçün pəsətləmişdi ki, evlənib xoşbəxt bir ailə sahibi olsun. Amma bütün bu şəxsi ambisiyalalarını qatlayıb bir tərəfə qoymuşdu ki, hər şeydən öncə vətəndir. Vətənini azad görmək eşqilə də həyatını qurban verdi və mənəvi əbədiyaşarlıq haqqı qazandırdı özünə qəhrəman ailənin qəhrəman övladı Babək.O vaxtlar mənimlə sovet ordusunda xidmət etməyə birgə yollandığımız Babəkin qardaşı Güloğlan Əliyevlə söhbət edərkən deyir ki, indi qardaşımın da, şəhidlərimizin də ruhları şaddır. Onların uğrunda canlarını qurban verdikləri vətənimiz azadlığına qovuşubdu.

Şəhidlərimizin ən uca amalları yaşayırsa, şəhidlərimiz də yaşayır. Ömürlərini vətənimizə qurban verən şəhidlərimizə Allah qəni-qəni rəhmət eləsin.

**Şakir ALBALIYEV**

# "ŞƏHİDLƏR UNUDULMUR"

Dürdanə Sosialist qızı Qaraşova Cəbrayıl rayonunda anadan olub. "Vətən, sənin torpağına qurbanam" adlı şeirlər kitabından sonra "Şəhidlər unudulmur" ("Maarif", 2023) adlı kitabı ilə oxucularla görüşür.

Dürdanə Qaraşova bu kitabında şair-publisist kimi çıxış edib. Belə ki, kitabın adından da göründüyü kimi, burada müəllif əsasən şəhidlərlə bağlı yazılara üstünlük verib və kitabın əsas özəlliyi də ondadır ki, şənini vəsf elədiyi şəhidlərimiz haqqında həm də yığcam avtobioqrafik məlumatlar da təqdim edib. Bu təqdimat da prinsipcə oxucularda vətən şəhidləri haqda ümumi bilgi yaratmış olur. Belə ki, Polad Həşimov, Mübariz İbrahimov, Şikar Aslanov, Akif Əkbərov, Vüqar Hüseynov, Mətləb Quliyev, Kazım Məmmədov, Səyavuş Kalbalıyev, Bayramlı Tural, Mahmud Cavadov, Ravil Hümbətov və digər şəhidlərimiz barəsində mənzum nümunələr yazan Dürdanə xanım onların keçdikləri qısa və şərəfli ömür yollarından da söz açır ki, bu da oxucularda aydın fikir yaratmağa xidmət edən amildir.




Bundan başqa kitabda "Şəhidlər acım mənim" və "İllərdi gözləyir o dağlar məni" bölümləri altında Dürdanə Sosialist qızı Xocalı, Laçın, Cəbrayıl, Şuşa, Vətən, qələbə və s. mövzularda da qələmini sınamışdır ki, bu da müəllifin vətənpərvər ruhda bir insan olmasından soraq verir. Eyni zamanda şəhidlərimizin bu vətən uğrunda canlarını fəda etdiklərini diqqətə çatdırır.

**Şakir Əlif oğlu ALBALIYEV**

# Təbiətin və cəmiyyətin poetik harmoniyası

Hüseyn Əfəndi. “...Mən qərib”. 2006-cı ildə “Vektor” Nəşrlər Evi tərəfindən buraxılmış Hüseyn Əfəndinin (Əfəndiyev Hüseyn Vəli oğlunun) şeirləri və publisistikasından ibarət olan kitabı bu adla işıq üzü görüb. 2004-cü ilin 21 dekabrında qəflətən ürək tutmasından dünyasını vaxtsız dəyişən Hüseyn Əfəndinin şeirlərində həssas bir qəlbin kövrək titrəyişləri hiss olunduğu kimi, publisistik yazılarında da torpaq, vətən, xalq təəssübü çəkən bir vətəndaş-ziyalının həyəcan dolu səsini-harayını eşidirik. Hüseyn Əfəndinin 2004-cü ildə nəşr olunmuş ”Domino” adlı bədii publisistikasını - hekayələrini də oxuyanda, şeirlər və publisistikasından ibarət “...Mən qərib” kitabını oxuyanda da onun yaradıcılığından olduqca kövrək, incə qəlbə, həssas duyğuya, iti düşüncə və geniş müşahidə aparmaq qabiliyyətinə malik olan bir vətənpərvər insanın nurani siması canlanıb nəzərimdə.Çox heyfsilənmişəm belə bir insanın həyatdan nakam gedişinə. Düşünmüşəm ki, yaşasaydı, hələ çox dəyərli sənət inciləri yazıb-yaradacaqdı. Birdən də özlüyümdə bu fikrə gəlirəm ki, axı bu cür cəmiyyət hadisələrinə qarşı həssas olub, onu öz yaradıcılığında əks etdirən bir qələm adamının zərif ürəyi bu ağrı-acılara tab gətirməyib çatlayardı, çox yaşaya bilməzdi. Elə həmkəndlisi olan rəhmətlik şair Çərkəz Məcid də belə olmadımı? Axı bu yazılanlar həssas, incə bir qəlbdən, düşüncə mərkəzi olan beyindən süzülüb gəlirsə, onun sahibinin içindən nələr gəlib-keçdiyini, hansı mənəvi məşəqqətlər çəkdiyini anlamaq mümkündür.

**Sən dəlisən, a dağ çayı, döşə nə?**
**Bir az yavaş, bənövşələr üşənər.**
**Çay daşları yollarına döşənər,**
**Ayaqlayıb, tapdalayıb keçərsən.**

Hamımızın hər yaz ağzı sellənib - daşdığını gördüyümüz dağ çayına xitabən yazdığı bu misralar təbiətin həmin mənzərəsini gözümüz önündə canlandırır. Bu mənzərənin poetik biçimi ondadır ki, şair sözlə təbiətin canlı rəsmini çəkmiş, duyğulanmalarının bədii-poetik ifadəsini yetərincə verməyi bacarmışdır. Eyni zamanda Hüseyn Əfəndi burada dağ çayını da, bənövşəni də, döşüçəməni də, çaylaq daşlarını da ayrı-ayrılıqda və həm də bütöv bir kompleks şəklində bu bəndə gətirmiş, göz önündə real bir təbiət mənzərəsinin bədii tablosunu yaratmışdır. Bu misraların məna baxımından üst layında gözəl peyzaj yaradan sənətkar alt layında da poeziyanın tələbləri çərçivəsində metaforik olaraq təşxisləndirmə yolu ilə sosial aləmin proyeksiyasını vermişdir. Belə ki, dağ çayını metaforik olaraq ”dəlisən” deyə dəli-dolu bir igidə bənzətmiş, bənövşəni utancaq, boynunu burmuş həyalı gözəl kimi təqdim etmişdir. ”Çay daşları yollarına döşənər” misrasında yenə çay(laq) daşları metaforik olaraq dağ çayının qəzəbinin qarşısını almaq üçün ayağına döşənər - minnətçi düşər, ancaq hirsindən gözüqızmış dəliqanlı kimi dağ çayı heç nəyə məhəl qoymadan ayağına minnətçi düşən çay daşlarının üstündən ayaqlayıb keçər.

**Cığırları itirərsən selində,**
**Azıb qallam dumanların əlində.**
**İlk sevgi tək ömrün gödək sənin də,**
**Axır bir gün xatirəyə köçərsən.**

Bu bənddə dağ çayını ömrü gödək olan ilk sevgi ilə müqayisə edir, bununla sanki dağ çayının dəliqanlılığında da ilk sevginin saflığı kimi bir saflıq, bəlkə də sadəlövhlük olduğunu demək istəyir. Adətən ilk sevgilər uğursuz və ömrügödək olur, ancaq ömür boyu ilk sevginin ürəkdə qoyduğu iz silinməz bir xatirəyə dönüb yaşayır.

**Sözlərimdən gəl incimə, dağ çayı,**
**Bu dağların dəli oğlu, ağ çayı.**
**Bilirsənmi, tez qurtarır qar payı -**
**Qurtaracaq, bir gün özün görərsən.**

Göründüyü kimi, Hüseyn Əfəni burada dağ çayını təşxisləndirib “dağların dəli oğlu” kimi təqdim edir, ”ağ çayı” ifadəsi ilə isə şəffaf, ağ suyuna işarə ilə əslində dəliqanlı oğulun ürəyinin ağ - yəni saf olduğuna eyham vurur. Yəqin ki, bu, hirsli, qəzəbli adamların əksərən ürəklərinin təmiz olması düşüncəsinin bu misraya proyeksiyasıdır.

**Nə Məcnunsan, nə Kərəmsən, nə Qərib,**
**Bu dağlarda Hüseyn qərib, sən qərib.**
**Başı daşlı, axı sənə nə gəlib,**
**Atılasan qayalardan, öləsən**

Yazda aşıb-daşan, sellənən dağ çayının öz dəliqanlılığının güdazına getməsinə bədii izah verən şair el dili ilə ”başı daşlı” ifadəsilə üz tutub deyir ki, axı sənə nə gəlib ki, axı sənə nə düşüb ki, dəlisovluq elədin, coşğun sel kimi qayanın başından özünü atıb, həlak elədin. Yəni dağ çayının ömrü onun dağın başından enib düzə çatana qədərdir. Əslində bu, bir təbii sonluqdur, lakin şair bu təbiət hadisəsinə ictimai dəyər prizmasından yanaşmaqla həm şeirə, həm də fikrinə bədii sonluq vurmuşdur.

Dağ çayına müraciət əsasında yazdığı şeirin nümunəsində Hüseyn Əfəndinin təbiətə poetik yanaşmasının bariz təcəssümünü görürük. Biz burada təbiət hadisələrinin sosial aləmə poetik transformasiyasını, təbii və ictimai amillərə poetik-bədii baxışlar fonunda vəhdətdə yanaşmanı izləyirik. “Dağ çayı” şeiri Hüseyn Əfəndinin poetik istedadının bədii güzgüsüdür.

**Nə taksi tapılar, nə səmt maşını,**
**Düşərəm piyada yolun ağına.**
**Bu boyda şəhəri qoyub başına,**
**Mən çıxıb gedərəm yolu nağıla.**




**Üzümə yağan qar əriyər sakit,**
**Külək kürəyimə dəyib qayıdar,**
**Mənimlə yanaşı yeriyər səki,**
**Hərdən döngələri əyib qayıdar.**

**Mənimlə yeriyər uca binalar,**
**Mənə yoldaş olar yol işıqları,**
**Nağılı olmayan gəlin analar**
**Nəynən yatırırlar gör uşaqları?**

**Durub göstərərlər pəncərələrdən**
**Bu qarlı gecədə bu qar əmini.**
**Evim-eşiyim də qalar geridə,**
**Ağ gecə, ağ küçə aparar məni**

Dörd bəndini əyani olaraq misal gətirdiyim bu şeir klipşəkilli yığcam bir kinolenti kimi həyatın müəyyən bir anını gözümüz önündən gətirib keçirir. Bu həyat səhnəsi Hüseyn Əfəndinin öz yaşantılarının bədii inikasıdır və eyni zamanda hər birimizin düşə biləcəyimiz vəziyyətin canlı təsviridir. Bakı küləkli şəhərdir, Bakıya qar yağanda soyuq qış gecələrində yolların buz bağlaması səbəbindən harasa getməyə, ya gecə növbəsinə işə getməyə ”nə taksi tapılar, nə səmt maşını” - yəni yol maşını, təsadüfi bir yol maşını”. O məqamda məcbur qalıb uzun qış gecəsində yolun ağına düşüb payi-piyada işə getməli olursan. Bax bu həyat səhnəsi o qədər real və bədii şəkildə təsvir olunub ki, sanki həmin anlar bir film kimi gəlib gözümüz qarşısından keçir: ”Üzümə yağan qar əriyər sakit, külək kürəyimə dəyib qayıdar” - nə qədər təbii şəkildə ifadə olunub insan və təbiət amili. Hamımız yol yeriyəndə, xüsusən də maşınla hərəkət edərkən bəzən elə anlar olur ki, o zaman yan-yörədə olan evlər, binalar, ağaclar, işıq dirəkləri və s. nə varsa hamısı elə təsəvvür eləyirik ki, onlar da hərəkət eləyir, bizimlə yanaşı qarşı-qarşıya gəlib, sonra geridə qalırlar. Bax həmin illüzial təsəvvürümüzü Hüseyn Əfəndi eynilə burada verib: ”Mənimlə yanaşı yeriyər səki, hərdən döngələri əyib qayıdar”. Bəli, adam səki boyu yeridikcə sanki dinməz-söyləməz səki də, küçə də sənə həyan olub, sənlə yanaşı addımlayır. Ta növbəti döngəyə - yol burumuna çatana qədər davam edər bu xəyali hal-vəziyyət. Elə ki, hardasa yol burulur saga, ya sola, onda getdiyin küçə də sanki sənə əlvida deyib ”geri qayıdır”. Bax bu xəyali proyeksiyanı şair şeirə gətirməklə həm də səkini təşxisləndirir - canlı, yeriyən bir halda təsəvvürdə canlandırır.

Növbəti bəndlərdə şair düşüncəmizdəki mifik - xəyali qar adamı obrazının real surətini bizə təqdim edir. Kimdir bu qar adamı? ”Nağılı olmayan gəlin analar gör nəynən yatırırlar körpələrini?” sualını qoymaqla növbəti bənddəki fikrə keçid edir. Bununla müəllif həm də milli təfəkkürümüzdə analarımızın balalarına şirin layla, nağıl söyləməklə yatızdırdıqlarına eyham vurur, sonra da təəssüflə ”gəlin analarımızın” - yəni gənc qadınlarımızın folklor ruhundan uzaq düşdüyünü, layla, bayatı, nağıl və s. bilmədiyini demək istəyir: ”nağılı olmayan - yəni nağıl, bayatı, layla bilməyən gəlin analar” kimi onları şeirdə təqdim edir.

“Durub göstərərlər pəncərələrdən bu qarlı gecədə bu qar əmini”.Buradakı ”qar əmi” obrazı elə şairin poeziyada təsəvvür etdiyi poetik mənidir - özüdür, öz prototipidir. Deməli, qarlı gecədə payi-piyada uzun-uzadı yol gedən adamın (şeirdə əminin) üstü-başı qarla örtülü olduğundan, həmin adam isti evlərdən baxan adamların (eləcə də şeirdə təsvir etdiyi gəlin anaların) nəzərində- xəyali düşüncəsində ”qar adam”təsiri bağışlayır və beləcə təsəvvürdə ”qar adamı” obrazı formalaşır. Deyərdim ki, Hüseyn Əfəndi bu şeirdə yaratdığı real həyat hadisəsinin fonunda mücərrəd ”qar adamı”, eləcə də Yeni il bayramındakı ”Şaxta baba” obrazının öz rişəsini məhz bu cür real həyatdan götürdüyünü diqqətə gətirir.

Hüseyn Əfəndinin poeziyasında real həyatın bədii-poetik lövhələri öz əlvan naxışlarıyla oxucularını ovsunlayır. Hansı mövzuya toxunubsa, orada ibrətamiz bir məntiq özünü diqtə etdirir.

**Dünya dolu qızınan,**
**Kim üşüyə, kim qızına**
**Ürəyimin ağrısına yazılan,**
**alnıma yazılmayan**
**bir qız yaşar**
**saçlarımın içində.**

Fikir verin: dünya qızla doludur deyən şair ardınca da ”kim üşüyə, kim qızına” söyləyir. Burada söz oyunu - kalambur vasitəsilə, sözün tələffüz şəklinin şirinliyi qorunmaqla - ”qızınan” sözü ”qızla” şəklində ədəbi dildəki kimi yox, məhz danışıqdakı kimi işlənməklə növbəti misradakı ”qızınmaq” (”qızına”) feli ilə həmqafiyə cinas qafiyə yaradıb. Bu, texniki baxımdan şairin sənətkarlığını ifadə edir. Eyni zamanda bu iki misra məzmun dolğunluğu ilə də zəngindir. ”Dünya dolu qıznandı”, amma bu qızların isti məhəbbətini kimsə qazanıb, onun məhəbbət oduna qızınacaq - isinəcək və onunla ailə qurub, evinin-ocağının bərəkətli, nurlu xanımı olacaq. Beləliklə, milli düşüncədəki kimi, evi-eşiyi qadın isidər, bir ailə - bir ocaq olub, köçü-külfəti, uşaqları başına yığıb, evi qızdırar, evin-ailənin ocağını yandırar. Bu məntiqdən dünya dolu qızdan birini sevmək-sevilməklə,özünə qismət etməklə ailə - isti ocaq qurmuş olursan və ömrün boyu bu ocağın istisinə qızınıb - yaşayırsan.

”Kim üşüyə, kim qızına” misrasındakı ”kim qızına” layını bu baxımdan yuxarıda açıqladım. ”Kim üşüyə” tərəfi isə ürəyini açmaq istədiyin qızın soyuq baxışlarından, ”yox” cavabından üşümək mənasına gəlir. Şairin özünün də növbəti misralarda göstərdiyi kimi, birtərəfli sevgi olaraq ürəkağrısı gətirən, alına-alın yazısına, bəxtə-taleyə yazılmayan qız... Beləcə, taleyə-qismətə yazılan qızın istisinə ömür boyu isinərsən, sevgini cavabsız qoyan və sənə ömür boyu ürək ağrısı gətirən bir qızın laqeydliyi isə səni ömürlük üşüdər

“Ürəyimin ağrısına yazılan, alnıma yazılmayan bir qız yaşar saçlarımın içində” ifadəsini məntiqi baxımdan bir neçə istiqamətə yozmaq olar. Sırf bu şeirin və şeirin müəllifinin çıxış etdiyi kontekstdən dəyərləndirmə aparsaq, həmin şeirin aşağıdakı sonluğu izah üçün ipucu verir:

**Saçlarımı darayaram,**
**bulaq üstdə dayanaram,**
**Baxıb, baxıb saçlarıma**
**qızlar çaşar.**
**Ağ saçlarımın içində**
**bir qız yaşar.**

Burada birbaşa müəllifin obrazı canlanır gözümüzün önündə. Saçlarının vaxtsız ağarmasına nisbətdə qızlar saçlarımın ağ olmasına baxıb çaşar deyir. Yəni gənclik yaşımda olsam da, saçlarımın vaxtından tez ağarmasını görən qızlar mənim qoca kişi görkəmimdə olmağımı görüb qaçarlar məntiqi boy göstərir şeirin konkret məzmunundan. Ona görə də ”ağ saçlarımın içində bir qız yaşar” söyləyir, yəni saçlarım tez ağarsa da, o saçların sevdasında - gənclik(imin) başında, gənclik həvəsimin içində bir qıza qovuşmaq istəyi yaşayır, ona görə ki, saçlarımın ağlığı cavanlığımın üstünə kölgə salmaz. Bu yozum mətnin (şeirin) məzmunundan doğan və müəllifin şəxsiyyətinin (zahiri simasının) bizə verdiyi ilkin informasiyadır.

İkinci yozum klassik poetik ənənədən gəlir: ”Aşiyanü-mürği-dil zülfi-pərişanındadır, Qanda (harda) olsam, ey gözəl, könlüm sənin yanındadır”, - deyən lirikanın atası Məhəmməd Füzuli də sevgili canana müraciətən deyir ki, könlümün quşunun yuvası sənin dağınıq saçlarının arasındadır. Yəni sevən aşiqin könül quşu sevgilisinin saçlarının içində yuva qurub. Bu məna (məntiq) ilə Hüseyn Əfəndinin ”ağ saçlarımın içində bir qız yaşar” deyimi bir-birini tamamlayır.

Üçüncü yozum isə bu deyimi bu şeirin kontekstindən - müəllif mətnindən və mənindən kənara çıxartdıqda üzə çıxır. Başqa sözlə, ”saçlarımın içində bir qız yaşar” cümləsini tam sərbəst bir mətn kimi götürsək və onu mənalandıra bilsək, burada aşiqin faciəsini görə bilərik. Nə deməkdir bu? Saçlar - saçın ağlığı insanın yaşını (yaşının çoxluğunu) nişan verən zahiri əlamətdir. Yaşı ötmüş subay oğlan özündən yaşca gənc bir qıza meyllənsə, aradakı yaş fərqi bu sevdanın qarşısını kəsən sədd-maneə kimi ortaya çıxacaqdır. Yaşı ötmüş subaylığın bir faciəsi də bax budur ki, ”bir qız yaşar saçlarımın içində” - yəni bu ağ saçlar sevgimə qovuşmaqda əngəl - problem kimi qarşıma çıxdı və bir qız - sevdiyim qız xəyalən ”saçlarımın içində” bitməz sevdaya dönüb ”yaşayar”. Bir mahnının sözlərindəki kimi, ”qızlar baxıb dayı deyər, ağarma, ay saçlarım, ağarma!”. Poeziyanın bir missiyası da mənəvi-estetik gözəllik aşılamaqla yanaşı, həm də insanı ruhən silkələyib - diksindirmək, müəyyən həyati mətləbləri andırmaqdır! Buna poeziyanın estetik-tərbiyəvi əhəmiyyəti də demək olar.

Mənə belə gəlir ki, bu kövrək misralarla Hüseyn Əfəndi həm də buz bağlamış soyuq qəlblərin də buz qatını sındırmaq istəyir, silkələyib oyatmaq istəyir insanları laqeydlikdən, biganəlikdən. İnsanların bir-birinə mehr-məhəbbət bəsləmələrini və bununla dünyamızın da isinməsini istəyir. Məhəbbət - doğmalıq olan yerdə xeyir-bərəkət də olar, insanlar da xoşbəxt, firavan, gülərüz yaşayarlar. Belə olan təqdirdə heç kəs də özünü insanlar arasında yalqız, qərib hiss etməz. Kitabın adında da ifadə olunan “mən qərib” ifadəsi də dolayısı ilə insanları qəriblik çəkməməyə çağırışdır, heç kəsin özünə “mən qəribəm” deməməsi üçün bir mesajdır. Çünki insanlar arasında başa düşülmürsənsə, sevilmirsənsə, demək, onda qəribsən. Hüseyn Əfəndi poeziyası insanı insanı anlamağa, sevməyə çağırır.

Gözəl insan, incə ruhlu şair, yazıçı-publisist kimi ədəbiyyatımızda öz sözünü demiş Hüseyn Əfəndi - belə bir ünvanla həmişə xatırlanacaq, yaşayacaqsan!..

**Şakir ALBALIYEV**

# Milli Azərbaycan Tarixi Muzeyinin Vətən Müharibəsi Fonduna yeni kitab hədiyyə edilib




**3000-dən artıq materialın qorunduğu Milli Azərbaycan Tarixi Muzeyinin Vətən Müharibəsi Fondu yeni materialları qəbul etməkdədir.**

Muzeyin Numizmatika Fondunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Aygün Məmmədovanın təşəbbüsü ilə fonda yeni kitab hədiyyə verilmişdir.

I Qarabağ müharibəsi veteranı, "Tərəqqi" medallı, filologiya üzrə fəlsəfə doktoru, dosent Şakir Əlif oğlu Albalıyev müəllifi olduğu kitabı muzeyin Vətən Müharibəsi Fondunun müdiri Şəfa Mövsümova təqdim etmişdir.

F.ü.f.d., dosent Şakir Albalıyevin "Cəbrayıllı milli qəhrəmanlar" adlı kitabında (Redaktor: Cəbrayıl RİH başçısının I müavini Arif Fərzəliyev; Bakı, Təknur, 2019, 96 s., Azərbaycan dilində) 1991-1992-ci illərin şəhidləri, Azərbaycanın milli qəhrəmanları - Şikar Aslanov, Vahid Quliyev, Mətləb Quliyev, Kazım Məmmədov, Vüqar Hüseynov, Akif Əkbərovun fotoşəkilləri, həyat və döyüş yolu işıqlandırılmış, onlara həsr edilən tədbirlər barədə məlumat verilmişdir. Kitab Azərbaycanın müasir dövr tarixinin tədqiqi və təbliğində önəm kəsb edir.

**Qısa arayış:**

Şakir Əlif oğlu Albalıyev 25 aprel 1969-cu ildə Cəbrayıl rayonunun Dağtumas kəndində dünyaya gəlmişdir.

1987-1989-cu illərdə həqiqi hərbi xidmətdə olmuşdur.

1989-1995-ci illərdə Bakı Dövlət Universitetinin "Filologiya" fakültəsində "Filoloq, Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisası üzrə təhsil almışdır.




Hələ tələbə ikən, 1992-ci ildə I Qarabağ müharibəsinə qatılmış və Cəbrayıl, Füzuli rayonları uğrunda döyüşlərdə iştirak etmişdir.

2006-cı ildə "Azərbaycan məişət nağıllarında şah obrazı" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsinə, 2011-ci ildə dosent elmi adına layiq görülmüşdür.

Bir sıra yerli və xarici elmi əsərlərin müəllifi olan Şakir Albalıyev "Qızıl qələm", "Ömər Faiq Nemanzadə", "Araz" mükafatları laureatıdır, "peşəkar jurnalist" fəxri adına layiq görülüb.

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafında xidmətlərinə görə Şakir Albalıyev "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Hazırda AMEA Folklorşünaslıq İnstitutunun "Mifologiya" şöbəsinin aparıcı elmi işçisi və 2009-cu ilin yanvar ayından "Xudafərin" qəzetinin baş redaktorudur.

**visiontv.az**





# Məktəblilərimiz finala vəsiqə qazandılar

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin və Kapital Bankın dəstəyi ilə noyabr-dekabr aylarında məktəblilərarası "Fibonacci" intellektual oyunlarının IV Respublika çempionatı keçirilmişdir. On turdan ibarət olan bu çempionatda rayonumuzu üç komanda təmsil etmiş, onlardan ikisi - Yuxarı Mərcanlı kənd tam orta məktəbin "Erudit", İsgəndər Tahirov adına Mehdili kənd tam orta məktəbin "Çinar" komandaları final mərhələsinə vəsiqə qazanmışlar.**

Fibonacci dünya şöhrətli riyaziyyatçılarından biridir. O, 1170-ci ildə İtaliyanın Pisa şəhərində anadan olub. Tam adı Leonardo Fibonaccidir. İlk riyaziyyat biliklərini müsəlman alimlərindən alır. Öyrəndiklərini və gəzib gördüklərini "Hesablama kitabı" adlı əsərində toplamış, bu əsərlə Hind-ərəb say sistemini Avropaya tanıtmışdır. Məşhur alim 1250-ci ildə doğulduğu Pisa şəhərində vəfat etmişdir. Bəhs etdiyimiz intellektual bilik yarışı da bu tanınmış riyaziyyatçının şərəfinə belə adlandırılmışdır.

Layihənin başlıca məqsədi akademik savadla yanaşı məktəb-şagird, şagird-müəllim və məktəblərarası əlaqələrin möhkəmləndirilməsi və şagirdlərə aşağıdakı xüsusiyyətləri aşılamaqdır: müstəqil düşünmək, sərbəst fikir söyləmək; öz təcrübəsini və biliyini təhlil etmək qabiliyyəti; özünü qiymətləndirmək; əməkdaşlıq etmək ( başqaları ilə işləməyi bacarmaq, ümumi məqsədə çatmaq üçün işin bölüşdürülməsi); başqalarını dinləməyi, müxtəlif fikirlərə hörmət etməyi və dözümlü olmağı öyrətmək; öz fikirlərini arqumentlərlə izah və sübut etmək; kreativ təfəkkürün inkişafı, sosial fəallıq; birgə həll yollarını müəyyənləşdirməyi və qərar çıxarmağı öyrənmək və s.

Respublikamızın müxtəlif bölgələrini əhatə edən on səkkiz komanda finalda iştirak edəcək. Rayonumuzu təmsil edəcək hər iki komandaya növbəti mərhələdə də uğurlar arzulayırıq!

**HİDAYƏT SƏFƏRLİ**

---

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Xudafərin" qəzeti** şair-publisist Əlirza Xələfliyə anası

**Xudayarova Firəngiz Rəhim qızının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Xudafərin" qəzeti şəhid Əyyub Süleymanovun anası**

**Əsədova Şüşən Müseyib qızının**

vəfatından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

---

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Xudafərin" qəzeti şəhid Babək Əliyevin anası**

**Həsənova Şükufə Səlim qızının**

vəfatından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

---

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Xudafərin" qəzeti** Azərbaycanın Milli Qəhrəmanı Vahid Quliyevə anası

**Surxayova Çiçək Hüseynxan qızının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Xudafərin" qəzeti Quliyev Novruz Ağakişi oğlunun**

vəfatından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

---

**"Xudafərin" qəzetinin baş redaktoru Şakir Albalıyev və "Xudafərin"çilər**

tanınmış dilçi-alim, professor

**Kamil Vəli Nərimanoğlunun**

vəfatından kədərləndiyini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

---

**"Xudafərin" qəzetinin baş redaktoru Şakir Albalıyev Abasquliyev Musa Məhəmməd oğlunun**

vəfatından kədərləndiyini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

---

## Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Xudafərin" qəzeti

**Məmmədova Ziba Əhməd qızı, Quliyeva Lalə Məhəmməd qızı, Zamanov Kamran Nadir oğlu, Cəfərov Mürvət Famil oğlu, Rəhimova Vəfadar Səfərxan qızı, İsmayılov Kazım Müseyib oğlu, Quliyeva Səhba Əhməd qızı, Məmmədova Zöhrə Muxtar qızı, Rüstəmova Nəzakət Qardaşxan qızı, Qaraşov Oktay Cəlil oğlu, Məmmədalıyev Allahverdi Mərdan oğlu və Nəsibova Qəmzə Qaraca qızının**

vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

---

Baş redaktor:
**Şakir Əlif oğlu ALBALIYEV**

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.
**CİF 1209641**
**H/h:55233080000**
**kod: 200123**
**VÖEN: 9900003611**
**SWIFT kod: AIIBAZ2X**
**M/h: AZ37NABZ01350100000000001944**
**Benefisiarın hesabı: AZ27IIB410100C9443130139112**
**VÖEN: 8200035441**
**Ünvan: AZ 1073, Bakı şəh.,**
Mətbuat prospekti, 529-cu məhəllə
"Azərbaycan" nəşriyyatı.
**Telefon:** (051) 441-15-82

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

**Əlyazmalar geri qaytarılmır.**

Qəzet "Xudafərin" qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında çap edilib.
**albaliyevshakir@gmail.com**
**albaliyevshakir@rambler.ru**
**Sifariş №: 3498**
**Tiraj: 2000**